Həqiqətən həyat onun üçün döyüş meydanıdır. Oxuduğum yazılarının hər birində yaşamaq, özünütəsdiq uğrunda mübarizə var. Yazdığı miniatürlərin birində boynubükük, utancaq bənövşə, özünün dediyi kimi "cıqqılı" novruzgülü - qarçiçəyi yaşamaq üçün qarla, buludla mücadilə etməkdədir.

"...Ey mənim bahar çiçəyim, səni ki belə sevir, əzizləyirlər, nədən boynun bükük, ömrün azdır deyə, həyata ümidlərin sönük? Belə düşünmə! Yolunu gözləyirik, sevənlərin deyil sənə dönük. Bax gözlərimə bənövşəm, ətir saç, kədərdən-qəmdən qaç! Dərd etmə, ömrünün azlığı sənin günahın deyil. Səni yaradan belə yaradıb, az ömürlü, çox sevimli. Adına nəğmələr yazdılar, şairlər səni vəsf etdilər. Başını dik tut, heç üzülmə! Sən həmişə varsan, baharın müjdəçisisən, çiçəklərin tacısan, baharın qızısan, sevənlərin yazısan".

Bu poetik lövhə təsiri bağışlayan parçada Təranə Şəmsin təsvir etdiyi bənövşə obrazı həm də həyatda unudulan, gözə görünməyən insanları yada salır. Qəlbi kövrəldən incə notlar sanki cəmiyyətə bir çağırışdır, insan toplumuna tutarlı mesajdır!

Güclü xarakteri, barışmazlığı, ipə-sapa yatmaması çoxlarının xoşuna gəlməsə də tarana getməsiylə, kompromissiz, güzəştsiz yolu seçməsiylə Təranə xanım özüdür, kiminsə təkrarı deyildir. Keçmişlə müasirlik arasında körpü olmaq, haqqı tapdalananların haqqını müdafiə etmək missiyasını boynuna götürənlər çoxmudur bu həyatda?

Təranə Şəms məhz cəmiyyətdə azlıq təşkil edən, axına qarşı üzən cəsarətli, ötkəm qələm adamlarındandır.

Qələmini bir çox janrlarda sınayan Təranə xanım üçün əsas meyar reallığı görərək qələmə almaqdır. Onun istər şeirlərində, bayatılarında, istər kiçik biçimli miniatürlərində (könül pıçıltıları), istərsə də bəhri-təvillərində həyatın bir parçası var. O, anı, vəziyyəti rəssam kimi tablosunda rəsm edir və gözlərimiz qarşısında canlı mənzərə yaradır. Şübhəsiz ki, bütün göstəricilərdə dilinin sadəliyi böyük rol oynayır.

Təranənin şeirlərində sevgi də, nifrət də boyasızdır. Bu da onun təbiətindən irəli gəlir. Onun təsvir etdiyi səhnələr qladiator döyüşünü xatırladır. Bu hisslər, duyğular axarında özünü axtaran, qələbələr qazanan, məğlubiyyətə uğrayan qəhrəmanın son monoloqu, gəldiyi qənaət, tapa biləcəyi sığınacaq ana dizləridir.

*Eşidin dostlarım,*
*çox yorulmuşam,*
*Elə dolmuşam ki,*
*yaş tökür gözüm.*
*Bir ana qucağı*
*könlümdən keçir,*
*Dizinə baş qoyub*
*tapaydım dözüm.*

"Sevdalıyam bu həyata" adlı ilk kitabından fərqli olaraq "Tənha adayam" adlandırdığı yeni kitabında müəllifin dünyaya baxış bucağı tamamilə yenidir.

Oxucu lirik əhval-ruhiyyəli olduğu halda qəfil oddan, alovdan da keçə bilər. Çünki Təranənin yazılarında sərt boyalar, qəfil keçidlər, gözlənilməzliklər çoxdu. Yaxşı cəhət odur ki, kəskin, tünd boyaların bağrından süzülüb gələn işıqdı, aydınlıqdı. Bu da müəllifin sağlam düşüncə tərzindən, sabaha olan ümid və arzularından xəbər verir. Bu mavilikdə, bu genişlikdə, həm də müəllifin axtardığı, sığınmaq istədiyi pıçıltılı bir sakitlik var.

Təranə Şəmsin bayatıları hətta bu günə kimi oxuduğum, eşitdiyim yüzlərlə bayatılar seçimində mənə son dərəcə doğma və təzə gəldi. Bu bayatıların kökü, mayası, qaynağı təbiilikdən yoğrulduğu üçün insan ruhuna, qəlbinə yaxındır.

Xatirimdədir, Mirzə Ələkbər Sabirdən başlayan Bəhri-təvil 60-70-ci illərdə Rüfət Əhmədzadənin, Rüfət Zəbioğlunun və başqalarının yaradıcılığında ən gözəl nümunələr kimi populyarlıq qazanmışdı. Lakin sonralar nədənsə bu janr yaddan çıxıb unudulmuşdu. Təranə Şəmsin bəhri-təvilə müraciət etməsi, bu sahədə uğur qazanması açığı məni çox sevindirdi. Bu barədə istedadlı qələm dostum Nizami Təhməzovun "Təranə Şəmsin yaradıcılığında Bəhri-təvil" məqaləsi olduqca maraqlıdır.

Təranə xanımın portret cizgilərini tamamlayan, daha qabarıq göstərən, şübhəsiz onun publisistik yaradıcılığıdır. Uzun müddətdir ki, müxtəlif mətbu orqanlarda oxuduğum yazılarında məni ən çox sevindirən onun obyektivliyi, mövzulara yaradıcı münasibəti, cəsarəti və əlbəttə, jurnalist etikasıdır. Təranə xanımın analitik düşüncə tərzi, yazılarındakı orijinallıq, üslub yeniliyi bir çox jurnalistlərimizə nümunə ola bilər. Şübhəsiz, bütün bu müsbət meyillər onun zəhmətsevərliyindən, intellektindən irəli gəlir. Təranə xanım həmkarları, qələm dostları ilə polemikaya girib, fikir mübadiləsi etməklə yanaşı, mövcud durumda gördüyü mənfilikləri qələmə almaq-


**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

| | | | |
|---|---|---|---|
| İqtisadiyyat və islahatlar redaksiyası: | **539-95-51;** | Xəbərlər redaksiyası: | **538-61-02;** |
| Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: | **538-55-20;** | İctimai rəy və sosial problemlər redaksiyası: | **539-95-51; 538-43-41 tel/faks;** |
| Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: | **539-95-51;** | Qəbul otağı: | **538-25-70;** |
| Humanitar siyasət redaksiyası: | **539-26-18;** | Katiblik: | **539-26-18;** |
| | | Reklam və elan xidməti: | **441-20-23.** |